**Hikmət Səid HƏMİDOV**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: hamidovhikmet@mail.ru

# AZƏRBAYCANIN AQRAR SEKTORUNDA SIĞORTA XİDMƏTLƏRİNİN İNKİŞAF PROBLEMLƏRİ

**Xülasə**

Tədqiqatın məqsədi Azərbaycanın aqrar sektorunda sığorta xidmətlərinin inkişaf problemlərinin araşdırılmasından ibarətdir. Aqrar sferanın inkişafını ləngidən problemlər tədqiq olunmuş və ümumiləşdirilmişdir. Müasir şəraitdə aqrar sektorda sığorta xidmətlərinin vacibliyi əsaslandırılmışdır. Azərbaycanda aqrar sahənin səmərəli fəaliyyət göstərməsində aqrar sığorta xidmətlərinin rolu verilmişdir. Perspektivdə ölkənin aqrar sahəsinin inkiaşfında sığorta xidmətlərinin rolunun artırılması üzrə təkliflər hazırlanmışdır. Tədqiqatın metodu kimi analiz, sintez, müqayisə və statistika metodlarından istifadə olunmuşdur. Bunlarla yanaşı, aqrar sektorda sığorta xidmətlərinin daha səmərəli təşkili üzrə elmi əsərləri olan tədqiqatçıların fikirləri diqqət mərkəzində saxlanılmışdır. Tədqiqatın nəticələri – qlobal iqtisadi transformasiyalar dövründə Azərbaycanın aqrar sahəsinin inkişafının intensivləşdirilməsində sığorta mexanizmindən səmərəli istifadə edilməsində faydalı olacağı ehtimal edilir.

**Açar sözlər:** Azərbaycan, aqrar sektor, sığorta, sığorta xidmətləri, aqrar sahədə sığorta, sığorta xidmətlərinin səmərəlilik problemləri.

**UOT:** 368.8
**JEL:** Q17; G22
**DOI:** https://doi.org/10.54414/BOSR9292

## Giriş

Qeyd edək ki, effektiv struktur dəyişikliyinin ən mühüm şərtlərindən biri lazımi resursların mövcudluğunun və onlardan istifadə oluna biləcəyi sənaye sahələrinin müəyyənləşdirilməsidir. Aqrar sektorda struktur dəyişikliyinin əsas məqsədi sahələr arasında optimal tarazlığın müəyyənləşdirilməsi, yüksək məhsuldarlığa nail olmaq, iqtisadi göstəricilərin yaxşılaşdırılmasıdır. Bununla yanaşı, struktur islahatlarının əsas şərti əsas fondlardan, maddi ehtiyatlardan istifadənin yaxşılaşdırılması və onların müasirləşdirilməsidir ki, bu, zamanın tələbidir. Başqa sözlə, kənd təsərrüfatı məhsulları istehsalçılarının maddi-texniki bazasının möhkəmləndirilməsi, istehsal prosesinin mexanikləşdirilməsi sahəsində struktur dəyişiklikləri, onların zəruri texnika və digər maddi resurslarla təminatının yaxşılaşdırılması günümüzün ən aktual problemlərindəndir.

Aqrar sahənin inkişafı və ərzaq istehsalının artım tempinin yüksəldilməsi üçün bu sahənin müasirləşdirilməsi çox vacibdir. Aqrar sahənin modernləşdirilməsi, ilk öncə, ETT-nin tətbiqindən, müasir texnika və texnologiyanın cəlb edilməsindən asılıdır. Habelə, aqrar sahənin modernləşdirilməsini reallaşdırarkən mövcud imkanları nəzərə almaq lazımdır. Aqrar sahənin modernləşdirilməsi mexanizmi yeni müasir texnika və texnologiyaların tətbiqinə yönəlmiş resurslardan səmərəli istifadəni təmin etməlidir. Burada söhbət dövlət qurumları, kənd təsərrüfatı məhsulları istehsalçıları və digər kənd təsərrüfatı təsərrüfat subyektləri tərəfindən müvafiq imkanların düzgün qiymətləndirilməsindən və onların tam şəkildə reallaşdırılmasından gedir. Aqrar sahənin modernləşdirilməsində nəzərəçarpacaq uğurlar əldə etmək məqsədilə real və aktiv investisiya siyasətini hazırlamaq və reallaşdırmaq lazımdır. Dünya təcrübəsi göstərir

ki, aqrar sektorun modernləşdirilməsi və kənd təsərrüfatı investisiya sisteminin inkişafı çox önəmli rol oynayır. İnkişaf etmiş maliyyə bazarında yeni texnika və texnologiyaya investisiyalar getdikcə müxtəlif maliyyə mənbələri vasitəsilə həyata keçirilir. Bu maliyyə mənbələri arasında sığorta şirkətlərinin aktivləri xüsusi yer tutur. Kommersiya banklarından sonra sığorta şirkətləri öz aktivlərinin həcminə və onlardan kredit kapitalı kimi istifadə imkanlarına görə maliyyə bazarlarında lider mövqe tuturlar [1, s.18]. Qeyd edilənlər sığorta xidmətlərinin nə qədər önəmli rol oynaya biləcəyini deməyə əsas verir.

**İqtisadi transformasiyalar şəraitində Azərbaycanın aqrar sektorunda sığorta xidmətlərinin tətbiqi proseslərinin araşdırılması inkişaf problemləri.** Son zamanlar bazar münasibətlərinin dərinləşməsi ilə baş dəyişikliklər sığorta xidmətlərinin inkişaf etdirilməsi problemlərini aktuallaşdırmışdır. Təsərrüfat subyektlərinin sosial və əmlak maraqlarının təmin etmək qabiliyyətinə malik sığorta xidmətlərinin rolu xeyli artmağa başlamışdır. Sığorta xidmətlərinin mahiyyəti, belə xidmətlərin göstərilməsi zamanı vəsaitlərin istifadəsi ilə bağlıdır. Sığorta həmişə sığorta hadisəsi olduqda reallaşdırılır ki, bu da sığorta ödənişlərinin istifadəsi ilə bağlıdır. Müasir şəraitdə müəssisələrin və ev təsərrüfatlarının sığortası maliyyələşdirmə aləti olmaqla sığortalıların iştirakı ilə fondlar formalaşdırır. Həmin fondlar əsasında sığortalılar və sığorta xidmətlərinin istehlakçıları arasında sığorta münasibətləri formalaşır ki, bunun nəticəsində sabit maliyyə axınları baş verə bilir.

Sığorta münasibətləri sığorta fondunun əsas iştirakçıları arasında, habelə sığortalı ilə sığortaçı arasında münasibətləri əhatə etdiyi üçün onun inkişaf səviyyəsinin qiymətləndirilməsi böyük önəm daşıyır. Sığorta münasibətləri sığorta kompensasiyasının və sığorta fondundan ödənişlərin ödənilməsini nəzərdə tutur [2, s.10].

İqtisadiyyatın ixtisaslaşmış sahəsi kimi sığortanın əsas məqsədi vətəndaşların və hüquqi şəxslərin əmlak mənafelərinin müxtəlif növ, gözlənilməz və təbii fəaliyyət nəticəsində dəymiş real zərərin vurulmasını təmin edən səmərəli sığorta sistemini yaratmaqdan ibarətdir. Sığorta mexanizminin unikallığı ondan ibarətdir ki, o, şirkətlərin və vətəndaşların əmlak maraqlarının müdafiəsi funksiyasını yerinə yetirməklə yanaşı, dövlətin müxtəlif istiqamətli makroiqtisadi problemlərini də həll edə bilir.

Maliyyə sistemində sığortanın yerinə yetirdiyi funksiyalar sırasında daxildir:

- sığorta üzrə ehtiyatlarının formalaşdırılması;
- əhalinin mövcud ehtiyatlarının mühafizəsi;
- risklərin azaldılması və onlardan yayınma yolu ilə yamühafizə olunma;
- mümkün itkiləri minimuma endirə və qarşısını ala biləcək qabaqlayıcı tədbirlərin reallaşdırılması;
- cəmiyyətdə sabitliyin təmin edilməsi, subyektlərin təhlükəsizliyi;
- fərdin və dövlətin maraqlarının müdafiəsi və s [3, s.47].

Bazar iqtisadiyyatı şəraitində sığorta iqtisadiyyatın strateji sektorlarından biri rolunu oynayır, çünki:

– büdcənin xərclər hissəsinin yükünü müəyyən qədər azaltmaq qabiliyyətinə malikdir;
– sığorta sistemi texnogen və təbii xarakterli fəlakətlər nəticəsində vətəndaşlara, şirkətlərə və dövlətə dəymiş zərərin əvəzini ödəyir. Bu da nəticə etibarilə dövlətin ödənişlərdən azad olunması, sərbəst buraxılan vəsaitləri müxtəlif yönlü dövlət proqramlarına yönəltmək kimi imkanlar yaradır;
– sosial önəm daşıyan sığorta növlərinin tətbiqi yolu ilə sosial müdafiə sisteminin tərkib hissəsi kimi cəmiyyətdə sabitliyə və inkişafın davamlılığına kömək edir;
– ölkənin maliyyə sisteminin dayanıqlılığına və inkişafının davamlılığına önəmli təsir göstərir, çünki o, iqtisadiyyatda etibarlı, sabit və çevik daxili investisiya mənbəyidir.

İqtisadi inkişaf və iqtisadi təhlükəsizlik problemlərinin həlli prosesində müxtəlif iqtisadi fəaliyyət sahələri, o cümlədən kənd təsərrüfatı daha böyük önəm daşıdığından, bu sahədə sığorta fəaliyyəti, bütövlükdə sığorta sistemi və bu sistemin subyektləri xüsusilə fərqlənir. Sığorta xidmətləri iqtisadiyyatın istənilən sahəsinin, eləcə də ölkə vətəndaşlarının üzləşdiyi problemlərin həllində, ilk öncə, onlara məruz qaldıqları

itkilərin ödənilməsində, daha etibarlı iş və yaşayışın təmin edilməsində strateji funksiyalar yerinə yetirir. Odur ki, sığorta təşkilatlarının fəaliyyəti vacibdir və onların daha səmərəli fəaliyyətini təmin etmək lazımdır [4, s.103]. Sığorta təşkilatlarının fəaliyyəti birbaşa olaraq yerli və dövlət büdcələrinə, büdcədənkənar dövlət fondlarına ayırmalar ilə bağlıdır.

Xarici ölkələrdə sığorta şirkətləri əsas investisiyalaşdırma mənbəyi kimi çıxış edir. Belə ki, onların bütün investisiya qoyuluşlarında payı təxminən 50% təşkil edir. Qərb iqtisadi ədəbiyyatında belə bir fikir formalaşmışdır: sığorta mümkün olmasaydı, müasir iqtisadiyyat bu qədər yüksələ bilməzdi. Avropa İttifaqı ölkələrində sığorta ehtiyatlarının 80%-i sığorta şirkətlərinin payına düşür. Etibarlı, effektiv sığorta müdafiəsi mexanizmini formalaşdırmaq lazımdır - bu, təkcə sığorta təşkilatlarının fəaliyyətinin genişləndirilməsi problemi deyil. Bu, bütövlükdə müasir cəmiyyətin vəzifəsidir, hansı istiqaməti seçməsindən asılı olmayaraq, bazar iqtisadiyyatının əvəzsiz amillərindən biridir. İqtisadiyyatın sosial yönümlü olması sığortanın forma və növlərinin müəyyən strukturuna tələblər qoyur. Azərbaycanda sığortanın müxtəlif növləri vardır ki, bunlardan biri aqrar sığortadır.

Aqrar sığorta ölkənin aqrar-sənaye kompleksinin uğurlu fəaliyyətinin vacib hissəsidir, gözlənilməz və əlverişsiz hadisələrin mənfi təsirini azaltmaq üçün ən təsirli vasitə kimi çıxış edir. Bu sığorta növünün yüksək inkişaf səviyyəsi sivil, müasir və səmərəli biznes sisteminin əlamətidir. Aqrar sığorta təkcə kənd təsərrüfatı sənayesi ilə məşğul olan təsərrüfat subyektlərinin risklərini azaltmağa kömək etmir, habelə iqlim dəyişikliyinin nəticələrinin qarşısının alınmasında maliyyə dəstəyi vasitəsi kimi çıxış edə bilər.

**Azərbaycanın aqrar sahəsində sığorta xidmətlərinin inkişaf etdirilməsi istiqamətləri**. Kənd təsərrüfatının risklərini minimuma endirmək üçün ən önəmli vasitələrdən biri kimi məhz aqrar sığorta çıxış edir. Aqrar sığorta bütün dünyada hava və təbii risklərin mənfi təsirini dəyişdirərək risklərin idarə edilməsinin əsas aləti kimi inkişaf etmişdir [5, s.31]. Aqrar sığorta kontekstində maliyyə resurslarına çıxış imkanlarının artırılmasının effektiv alətlərindən biri sığorta mexanizmləri vasitəsilə bu sahə ilə bağlı risklərin azaldılmasıdır. Aqrar sığorta dəyişən hava şəraiti və qiymət dəyişikliyi səbəbindən məhsuldarlığı və gəlirliliyi ilə bağlı riskləri azaldır və kredit öhdəliklərinə xidmət qabiliyyətini artırır və bu sektorda kredit imkanlarının artmasına səbəb olur.

**Şəkil1.** Kənd təsərrüfatı heyvanları və bitkiləri üzrə sığorta haqqlarının həcmi.




**Mənbə:** [6] əsasında hazırlanmışdır.

Azərbaycanda kənd təsərrüfatı heyvanları üzrə sığorta haqqlarının həcmi son 3 ildə davamlı olaraq azaldığı halda, bitkiçilik məhsulları üzrə artmışdır. Belə ki, 2023-cü ildə heyvanlar üzrə sığorta haqqları 2021-ci ilə görə 62,1%, 2022-ci ilə görə 41,7% azaldığı halda, bitkiçilik üzrə 2021-ci ildə 2,1 dəfə, 2022-ci ildə isə 40,1% artmışdır

Tədqiq edilən dövrlərə diqqət yetirsək, görərik ki, 2016-2021-ci illərdə kənd təsərrüfatı heyvanları üzrə sığorta haqqları bitkiçilik məhsulları üzrə sığorta haqqlarından çox olduğu halda, 2022-2023-cü ildə isə əksinə olmuşdur. Kənd təsərrüfatı heyvanları və bitkiləri üzrə sığorta ödənişlərinin artım dinamikası qeyri-bərabər olmuşdur ki, bunu şəkil 2-dən müşahidə edə bilərik.

**Şəkil 2.** Kənd təsərrüfatı heyvanları və bitkiləri üzrə sığorta ödənişlərinin həcmi.




**Mənbə:** [6] əsasında hazırlanmışdır.

2023-cü ildə Azərbaycanda kənd təsərrüfatı heyvanları üzrə sığorta ödənişləri 1079,8 min AZN təşkil edib ki, bu da 2022-ci ilə görə 0,5% az, 2021-ci ilə görə isə 87,9% çoxdur. 2023-cü ildə bitkiçilik üzrə sığorta ödənişləri 3494,7 min AZN olmaqla 2023-cü ildə təşkil edib ki, bu da bütün dövrlər ərzində ən yüksək göstəricidir.

Şəkil 3-dən bütün dövrlər ərzində kənd təsərrüfatı heyvanları üzrə sığorta haqqlarının sığorta ödənişlərindən çox olduğunu görmək olar. Kənd təsərrüfatı bitkiləri üzrə isə 2017 və 2023-cü illərdə sığorta haqqları sığorta ödənişlərindən az, digər illərdə isə çox olmuşdur. 2023-cü ildə kənd təsərrüfatı heyvanları və bitkiləri üzrə sığorta haqqlarının ümumi həcmi 16894,5 min AZN olub ki, bunun 76,6%-i bitkiçilik, 23,4%-i isə heyvandarlıq üzrədir (şəkil 3). Qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatı heyvanları və bitkiləri üzrə olan sığorta haqqları və ödənişləri könüllü sığorta növü üzrə reallaşdırılmışdır.

Bütün bu göstəricilər aqrar sahədə sığorta münasibətlərinin stimullaşdırılmasını zərurətə çevirir. Aqrar sahədə sığorta münasibətlərinin stimullaşdırılması məqsədilə dövlət maliyyə yardımının ayrılması və bu yardımın ödənilməsi qaydalarının təkmilləşdirilməsi aktual məsələlərdən biridir. Çünki hazırda aqrar sahə istehsalçısı sığorta prosesinin reallaşdırılmasında kifayət qədər maraqlı deyil [7, s.20].

Aparılan araşdırmalar və təhlillər sığortanın aqrar sahənin inkişafında önəmli vasitələrdən biri olduğunu deməyə əsas verir. Aqrar sığortaya tələbatın genişlənməsinə kənd təsərrüfatı istehsalçılarının sığorta mədəniyyətinin və məlumatlılıq səviyyəsinin yüksəldilməsi ilə kömək etmək olar, çünki sığorta sistemi son illərdə sürətlə dəyişir və bu sahənin sahibkarlıq subyektlərinin sığorta fəaliyyətini izləməyə vaxtı yoxdur.

**Şəkil 3.** Sığorta haqqları və ödənişlərinin kənd təsərrüfatı heyvanları üzrə bölgüsü.




**Mənbə:** [6] əsasında hazırlanmışdır.

Aqrar sığorta üzrə məhsul xəttinin də yenilənməsi tələb olunur. Hər bir sığortalının ehtiyaclarını nəzərə alaraq, sığorta məhsulunu fərdiləşdirməklə daha çevik sığorta şərtlərinin təklif edilməsi vacibdir. Bu, sığortalı ilə sığortaçı arasında möhkəm və etibarlı münasibət yaradacaq və aqrar sığortanın inkişafına töhfə verəcək. Kənd təsərrüfatı istehsalçıları üçün sığorta müdafiəsinin əlçatanlığının artırılması yolu ilə sığorta haqları xərclərinin bir hissəsinin subsidiyalaşdırılmasının genişləndirilməsi inkişafı stimullaşdıra bilər.

Aqrar sahənin inkişafı baxımından dövlət dəstəyi ilə səmərəli, dayanıqlı aqrar sığorta sisteminin qurulması zəruridir ki, bu da dövlət, kənd təsərrüfatı istehsalçıları və sığortaçılar kimi bütün maraqlı tərəflərin rəyləri nəzərə alınmaqla mümkündür. Kənd təsərrüfatı istehsalçıları minimum xərclə sığorta müdafiəsi əldə etməkdə maraqlıdırlar, sığorta şirkətləri sığorta əməliyyatlarını kifayət qədər gəlirlilik dərəcəsi ilə aparmaq, hökumət isə milli kənd təsərrüfatı sektorunun sabit fəaliyyəti üçün şərait yaratmaq istəyir.

Kənd təsərrüfatını dəstəkləmək həmişə dövlətin əsas vəzifəsi olub. Ölkənin iqtisadi inkişafının yüksək səviyyəsi bu sənayenin inkişafından və sabitliyindən birbaşa asılıdır. Bu məsələ istənilən ölkə üçün ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahə istehsalının həcminin artırılması baxımından önəmlidir. Kənd təsərrüfatı istehsalı ən riskli sahələrdən biri kimi hər zaman dövlət dəstəyinə ehtiyac duyub. Fəlakətli risklərin başlanması ilə bağlı itkilər adətən irimiqyaslıdır və müxtəlif səviyyələrdə büdcələrdən böyük xərclər tələb edir. Qeyd edilənlər baxımından aqrar sahədə sığorta sisteminin inkişafı əsas prioritetlərdəndir. Aqrar sığorta kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinə mənfi amillərin təsirindən qorunmanın səmərəli üsullarından biri olması dünya təcrübəsində də böyük uğur qazanmışdır.

**Nəticə**

Beləliklə, aqrar sığortanın inkişafı sahəsində prioritet vəzifələr aşağıdakılardan ibarət olmalıdır:

– müvafiq qanunun tətbiqinin praktiki aspektlərini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi;
– maliyyə sabitliyinin artırılması və kənd təsərrüfatı istehsalçılarının əksəriyyətinin sığorta xidmətlərinin tariflərinin aşağı salınması yolu ilə sığorta sistemində iştiraka cəlb edilməsi üçün zəruri şəraitin yaradılması;
– sığortalıların mövcud sığorta proqramları, onların xüsusiyyətləri, sığorta mühafizəsi imkanları, sığorta qaydaları haqqında məlumatlandırılması;

- sığorta məhsullarının çeşidinin genişləndirilməsi və sığortalılara xidmət keyfiyyətinin yüksəldilməsi;
- dövlət dəstəyi ilə aqrar sığorta müqavilələri üzrə tərəflərin hüquqlarını reallaşdırmaq məqsədilə zəruri olan mütəxəssislərin hazırlanması.

Azərbaycanda aqrar sahənin sığortanın səmərəli inkişafı üçün görüləcək tədbirlər olmalıdır:

- ✓ gəlir indeksi əsasında sığortanın təmin edilməsi;
- ✓ regional idarələrin bitkiçilik və heyvandarlıqda aqrar sığortanın həcminin artırılmasına həvəsləndirilməsi;
- ✓ aqrar sığorta bazarında aktiv fəaliyyət göstərən sığorta şirkətlərinə vergi güzəştləri verilməsi;
- ✓ dövlət büdcəsindən aqrar sığorta üçün subsidiyaların regionlara vaxtında köçürülməsi;
- ✓ aqrar sığorta müqavilələri üzrə sığorta şirkətlərinə subsidiyaların vaxtında verilməsinə görə regional idarələrin məsuliyyətinin gücləndirilməsi;
- ✓ dövlət təkrarsığorta şirkətinin yaradılması;
- ✓ ölkənin təsis qurumlarında təbii və iqlim risklərinin qiymətləndirilməsi üçün məcburi bir vasitə kimi peyk vasitəsilə monitorinqin geniş miqyaslı istifadəsi və s.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Гусейнов М.Д. Роль страхования в модернизации производственной структуры аграрной сферы. М.Д. Гусейнов, Э.А. Салахов, Э.Н. Кулиев. Финансовый вестник, 2018;2(41):16-23.
2. Gəncəyev F.İ. Sığorta münasibətlərinin inkişafının risklərin qiymətləndirilməsi və azaldılmasına təsiri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı. Gəncə, 2021. 24 s.
3. Эльгайтарова Н.Т. Роль страхования в национальной экономике. Н.Т. Эльгайтарова, М.Ш. Салпагарова. Научные известия, 2020;21: 46-50.
4. Ağayev H.R. Aqrar sığorta münasibətlərinin inkişafı və sığorta şirkətlərinin fəallığının artırılması. Kənd təsərrüfatının iqtisadiyyatı, 2021;4(38):103-112.
5. Настич В.Г. Теоретические аспекты страхования рисков в сельском хозяйстве. Вісник Бердянського університету менеджменту і бізнесу, 2015; 4(32):30-32.
6. ARMB. [Elektron resurs]. https://www.cbar.az/page-189/insurance/.
7. İsmayılov H.N. Aqrar sahədə maliyyə resurslarından səmərəli istifadənin risklərin azaldilmasında rolu. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. Gəncə, 2022;24 s.

**Hikmat Said HAMIDOV**
PhD student of Azerbaijan Cooperation University

## PROBLEMS OF DEVELOPMENT OF INSURANCE SERVICES IN THE AGRICULTURAL SECTOR OF AZERBAIJAN

### Summary

The purpose of the study is to investigate the problems of development of insurance services in the agrarian sector of Azerbaijan. The problems that slow down the development of the agrarian sphere are studied and generalized. The importance of insurance services in the agrarian sector in modern conditions is substantiated. The role of agrarian insurance services in the effective functioning of the agrarian sector in Azerbaijan is given. Proposals are made to increase the role of insurance services in the development of the country's agrarian sector in the future. The research method used was analysis, synthesis, comparison and statistical methods. In addition, the views of researchers who have scientific works on more efficient organization of insurance services in the agricultural sector were kept in the spotlight. The results of the study are likely to be useful in

effectively using the insurance mechanism to intensify the development of the agricultural sector of Azerbaijan during the period of global economic transformations.

**Keywords:** Azerbaijan, agrarian sector, insurance, insurance services, insurance in the agricultural sector, efficiency problems of insurance services.

**Хикмет Саид ГАМИДОВ**
Докторант Азербайджанского Университета Кооперации

## ПРОБЛЕМЫ РАЗВИТИЯ СТРАХОВЫХ УСЛУГ В АГРАРНОМ СЕКТОРЕ АЗЕРБАЙДЖАНА

**Резюме**

Цель исследования изучение проблем развития страховых услуг в аграрном секторе Азербайджана. Рассматриваются и обобщаются проблемы, замедляющие развитие аграрной сферы. Обосновывается важность страховых услуг в аграрном секторе в современных условиях. Представлена роль аграрных страховых услуг в эффективном функционировании аграрного сектора Азербайджана. Предложены пути повышения роли страховых услуг в развитии аграрного сектора страны в будущем. В качестве метода исследования использовались методы анализа, синтеза, сравнения и статистического анализа. Наряду с этим, в центре внимания находятся идеи исследователей, имеющих научные работы по более эффективной организации страховых услуг в аграрном секторе. Результаты исследования, вероятно, окажутся полезными для эффективного использования механизма страхования с целью интенсификации развития сельскохозяйственного сектора Азербайджана в период глобальных экономических преобразований.

**Ключевые слова:** Азербайджан, аграрный сектор, страхование, страховые услуги, страхование в сельскохозяйственном секторе, проблемы эффективности страховых услуг.

**Daxil olub:** 26.02.2026